# AMEA Gənclər Akademiyasının ilk iclası

**AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin rəhbərliyi ilə Gənclər Akademiyasının ilk iclası keçirilib. İclasda Azərbaycan Milli Elmlər Akademiyasının Gənclər Akademiyasının idarə heyəti, strukturu və yeni tərkibi müəyyənləşdirilib.**



Akademik İsa Həbibbəyli Gənclər Akademiyasının yaradılmasının önəmindən və qarşıda duran vəzifələrdən danışıb, müvafiq tapşırıqlar verib. Qeyd edib ki, Gənclər Akademiyasının fəaliyyətinin təşkilində diqqət olunacaq məsələlər - regionlarda elmi gəncliyə dəstək, yay və qış məktəblərinin, eləcə də konfransların, seminar və ustad dərslərinin təşkili, beynəlxalq elmi əməkdaşlıqların gücləndirilməsi və s. kimi məsələlərin AMEA-nın başlatdığı yeniləşmə hərəkatının və bu hərəkatın davamı olaraq yeni islahatların aparılmasında prioritetlərdəndir.

İclasda Gənclər Akademiyasının strukturuna daxil edilən qurumlara rəhbər şəxslər də təyin olunub. Belə ki, filologiya elmləri doktoru, dosent Sərxan Xavəri Gənclər Akademiyasına elmi məsləhətçi təyin edilib. Gənclər Akademiyasının sədr müavini filologiya üzrə fəlsəfə doktoru Şəfa Əliyeva, Gənclər Akademiyasının Elmi-kütləvi tədbirlərin təşkili departamentinin müdiri filologiya üzrə fəlsəfə doktoru Orxan İsayev, Gənclər Akademiyasının Beynəlxalq Əməkdaşlıq Assosiasiyasının sədri filologiya üzrə fəlsəfə doktoru Arzu İsgəndərzadə, Gənclər Akademiyasının Rəqəmsal Mobillik Mərkəzinin müdiri isə Günel Əzimova təyin olunub.

İclasda Gənclər Akademiyasının elmi məsləhətçisi filologiya elmləri doktoru, dosent Sərxan Xavəri, sədri dosent Elmir Babayev, sədr müavini filologiya üzrə fəlsəfə doktoru Şəfa Əliyeva çıxış edərək Azərbaycan gəncliyinin nəyə qadir olduğunu göstərmək üçün Gənclər Akademiyasının əlindən gələni edəcəyini vurğulayıblar. Gənclər Akademiyasının struktur rəhbərləri Orxan İsayev, Arzu İsgəndərzadə və Günel Əzimova isə göstərilən etimada, elmi gəncliyə dəstəyə, diqqət və qayğıya görə AMEA rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Gənc alimlər AMEA gənclər hərəkatının ölkədə və ölkədən kənarda əhəmiyyətli layihələrdə iştirakı üçün var gücü ilə çalışacaqlarını söyləyiblər.

İclasda AMEA-nın Rəyasət Heyəti aparatının İnsan resursları şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Aynur Mahmud və Təsərrüfat şöbəsinin müdiri Samir Hüseynov da iştirak ediblər.

Elm .-2026.- 23 yanvar (№ 3).- S.5.